Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 237 (1365) 23 dekabr - 24 dekabr 2016-cı il

# Bizim Tərtər - bizim səngər

**Bütün bölgələrimizə olduğu kimi, sərhədyanı rayonlara da diqqət və qayğı ilbəil artırılır, irimiqyaslı layihələr həyata keçirilir, yeni iş yerləri yaradılır. Son illər Tərtər rayonunun sosial-iqtisadi inkişafına nəzər yetirdikdə bunu aydın görmək olur.**

### *Döyüşən şəhər*

İşğalçı düşmənlə üz-üzə dayanan, hər bir qarış torpağı göz bəbəyi kimi qoruyan Tərtər sakinlərinin həyat şəraiti, qayğıları daim dövlətimizin diqqət mərkəzindədir. Bu ayın ilk günlərində ölkə rəhbəri İlham Əliyev növbəti dəfə Tərtərə səfər edərək son illər burada həyata keçirilən işlərlə yaxından tanış oldu. Yerli camaatla görüşən prezident bu qəhrəman insanların ən çətin anlarda belə qurub-yaratmaq əzmini yüksək qiymətləndirdi, ölkənin iqtisadi cəhətdən daha da güclənməsi üçün verdikləri töhfələrə görə onlara təşəkkür etdi.

Prezidentin döyüşən və eyni zamanda yenidən qurulan bu şəhərə səfəri bir neçə yeni obyektin açılışı ilə əlamətdar oldu. Dövlət başçısı Tərtərçay üzərində yeni tikilən körpünün, Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının inzibati binasının, şəhərdəki Şahmat məktəbinin, 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimlərində iştirak etdi.

Prezident bu ilin aprelində işğalçı Ermənistan ordusuna qarşı keçirilən uğurlu hərbi əməliyyat zamanı igid əsgər və zabitlərimizin qəhrəmanlığını bir daha xatırlatdı, cəbhə bölgəsində yaşayan sakinləri əmin etdi ki, qələbəmiz yaxınlaşır. Ölkə rəhbəri son vaxtlar erməni işğalçılarının atəşləri nəticəsində ziyan dəyən evlərə də baş çəkdi, burada aparılan təmir-bərpa işləri ilə yaxından tanış olaraq göstərişlərini verdi.

> **"Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam, xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir".**
>
> ***İlham Əliyev***
> ***Azərbaycan Respublikasının Prezidenti***






Prezident döyüş bölgəsinə yaxın ərazilərdə yaşayan sakinlərin problemləri ilə də maraqlandı.

### *Tərtərin belinə dolanan kəmər*

Prezidentin sonuncu səfəri zamanı "Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin başa çatması münasibətilə də tədbir keçirildi. "Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramı çərçivəsində icra edilən bu layihə Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" layihəsi çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Tərtər şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Gələcəkdə rayonun 21 min sakinin yaşadığı 11 kəndinə də içməli suyun verilməsi nəzərdə tutulub. Rəsmi məlumatlarda göstərildiyi kimi, ümumilikdə isə bu layihədən 47 min sakin faydalana biləcək.

Qeyd edək ki, bu mühüm əhəmiyyətə malik layihənin icrasına ötən ilin mayında başlanılıb. Tərtər şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün ümumi məhsuldarlığı saniyədə 200 litr olan 9 subartezian quyusu qazılıb, 3,6 kilometr uzunluğunda quyulararası xətt inşa edilib.

Şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün hər birinin həcmi 5 min kubmetr olan 2 su anbarı, nasos stansiyası və 2,4 kilometr uzunluğunda magistral su kəməri inşa edilib.

Layihəyə əsasən, Tərtər şəhərində 91 kilometr paylayıcı su şəbəkəsi yaradılıb, 4700 ünvana birləşmə verilib və bu ünvanlar sayğacla təmin edilib. Yanğın təhlükəsizliyi məqsədilə şəhərin müxtəlif yerlərində 360 yanğın hidrantı, suyun optimal idarə edilməsi üçün 185 siyirtmə quraşdırılıb.

Yeni yaradılmış su təchizatı sistemləri vasitəsilə şəhərə 24 saat fasiləsiz içməli suyun verilməsi təmin edilib.

**Layihə çərçivəsində Tərtər şəhərində ilk dəfə kanalizasiya sistemi də yaradılıb. Bu məqsədlə 75 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 3,5 kilometrlik kollektor inşa olunub. Eyni zamanda, Tərtər Sukanal İdarəsi üçün müasir standartlara cavab verən yeni inzibati binanın tikintisi də layihələndirilib və bu mərhələdə icra olunacaq. Tullantı sutəmizləyici qurğu və inzibati bina da nəzərə alınmaqla layihə üzrə tikinti işləri 2018-ci ildə tam yekunlaşacaq.**

**(davamı qəzetimizin növbəti sayında)**

***Etibar CƏBRAYILOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ